## “DOST İnfrastruktur Mərkəzi” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. “DOST İnfrastruktur Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – Cəmiyyət adlanacaq) öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir.
1.2. Cəmiyyətin hüquqi ünvanı: AZ1009, Bakı şəhəri, Yasamal rayonu, S. Əsgərova küçəsi 85.

### 2. Cəmiyyətin nizamnamə kapitalı

2.1. Cəmiyyətin nizamnamə kapitalı 5000 (beş min) manat həcmindədir və hər biri 500 (beş yüz) manat olmaqla 10 (on) paydan ibarətdir.
2.2. Cəmiyyət iştirakçısının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:
2.2.1.“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” publik hüquqi şəxsi - 5000 manat, 10 (on) pay, 100% pul şəklində.
2.3. Təsisçilər Nizamnamə kapitalına öz paylarını pul şəklində, qiymətli kağızlar, başqa əmlak və ya əmlak hüquqları və ya pul dəyəri olan digər hüquqlar formasında qoya bilərlər. Bu öhdəlik təsisçilər tərəfindən pozulduqda onlar Ümumi Yığıncağın qərarı ilə qəbul edilmiş qaydalara müvafiq məsuliyyət daşıyırlar. Nizamnamə kapitalına qoyulan əmlak və digər mülkiyyətin qiymətləndirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.
2.4. Cəmiyyət iştirakçılarının qoyduqları mayaların tərkibi və onun dəyişməsi, mayanın qoyulması qaydası və müddəti Ümumi Yığıncaq tərəfindən müəyyən edilir.
2.5. Vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranan xalis mənfəət iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib qaydada və Ümumi Yığıncağın qərarı əsasında bölüşdürülür.
2.6. İştirakçının payını (onun bir hissəsini) məhdud məsuliyyətli cəmiyyətin əldə etdiyi halda cəmiyyət onu Ümumi Yığıncağın qərarında müəyyən edilmiş müddətdə və qaydada satmalı və ya qanunvericiliyə müvafiq qaydada nizamnamə kapitalını azaltmalıdır.

### 3. Cəmiyyətin fəaliyyəti

3.1. Cəmiyyət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (bundan sonra - Nazirlik) və Nazirliyin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyində olan qurumlara aid tikinti obyektlərində bundan sonra – (Nazirliyin tikinti obyektləri) aparılan tikinti-quraşdırma işlərinin vaxtında və yüksək keyfiyyətlə icrasına və istifadəyə verilməsinə, həmin işlərin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsinə texniki nəzarətin təmin edilməsi, əsaslı vəsait qoyuluşu üzrə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər maliyyə mənbələrindən ayrılmış vəsaitlərin idarə edilməsinin səmərəliliyinin artırılması, habelə tikinti prosesində ortaya çıxan məsələlərin operativ həll edilməsi məqsədilə tikinti-quraşdırma işlərinin vahid şəkildə idarə edilməsi, tikinti layihələrinin idarəolunması siyasətinin müəyyənləşdirilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi sahəsində aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilər:
3.1.1. Nazirliyin tikinti obyektlərinin layihələndirilməsi və tikinti-quraşdırma işlərində sifarişçi funksiyasının yerinə yetirilməsi, bu məqsədlə dövlət büdcəsindən və qanunla qadağan olunmayan başqa maliyyə mənbələrindən ayrılan maliyyə vəsaitlərinin idarə edilməsi;

3.1.2. Nazirliyin tikinti obyektlərinin layihə-smeta sənədlərinin hazırlanması, xarici kommunikasiyaların texniki şərtlərinin və layihələrin alınması, o cümlədən, aidiyyəti qurumlardan rəylərin alınması prosesini nəzarətdə saxlamaqla tədbirlərin görülməsi;
3.1.3. aidiyyəti dövlət qurumları, layihəçi təşkilatlar, habelə tikinti-quraşdırma işlərinə cəlb edilmiş podratçı təşkilatlarla koordinasiyanın təşkil edilməsi, icra prosesinin nəzarətdə saxlanılması;
3.1.4. Nazilyin tikinti obyektlərində və digər əsas fondlarında aparılan tikinti-quraşdırma işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsinə, vaxtında və yüksək keyfiyyətlə tikilib istifadəyə verilməsinə texniki nəzarət edilməsi, tikinti-quraşdırma işləri başa çatmış obyektlərin Podratçı və ya Baş Podratçı ilə birgə qəbul komissiyasına təqdim edilməsi;
3.1.5. tikinti planlarının, layihə-smeta sənədlərinin işlənilməsi və təsdiqinin təmin edilməsi;
3.1.6. hazırlanmış layihə-smeta sənədlərinin müəyyən edilmiş qaydada Nazirlik və digər müvafiq dövlət orqanları ilə razılaşdırılmasını, ekspertiza orqanlarının irad və təkliflərini nəzərə almaqla layihələrdə müvafiq dəyişikliklərin aparılmasını və onların müvafiq qaydada təsdiqinin təmin edilməsi;
3.1.7. texniki nəzarət etdiyi tikinti obyektlərində aparılan işlərin tikinti norma və qaydalarına uyğunluğuna nəzarət edilməsi, tikinti-quraşdırma işlərində ortaya çıxan texniki məsələlərin həll edilməsi;
3.1.8. tikinti-quraşdırma işlərinə cəlb edilmiş podratçıların və tikinti quraşdırma işlərinə nəzarət edən təşkilatların işlərinə nəzarət edilməsi və bununla bağlı monitorinqlərin və digər işlərin həyata keçirilməsinin nəzarətdə saxlanılması, zəruri olduqda əlavə tədbirlərin görülməsi;
3.1.9. layihələndirmə və tikinti-quraşdırma işlərinin maliyyələşdirilməsinin, habelə yerinə yetirilmiş bu işlərin dəyərinin ödənilməsinin təmin edilməsi;
3.1.10. tikinti-quraşdırma işlərinin, tikintisi başa çatmış yeni obyektlərin qəbul prosesinin nəzarətdə saxlanılması, müvafiq struktur bölmələrlə prosesin əlaqələndirilməsi;
3.1.11. tikinti-quraşdırma işlərinin maliyyələşdirilməsi məqsədilə mühasibat, əməliyyat və statistik hesabatların aparılması.
3.2. Cəmiyyət bu Nizamnamənin 3.1-ci bəndində qeyd edilən fəaliyyət istiqamətləri ilə yanaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə məşğul ola bilər.
3.3. Cəmiyyət bu Nizamnamənin 3.1-ci bəndində qeyd edilən fəaliyyət istiqamətləri üzrə xidmətləri müqavilə əsasında hüquqi və fiziki şəxslərə göstərə bilər.
3.4. Cəmiyyət xüsusi icazə alınması tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

## 4. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağı

4.1. Cəmiyyətin ali orqanı onun iştirakçılarının Ümumi Yığıncağıdır (bundan sonra- Ümumi Yığıncaq). Cəmiyyətin təsisçisi bir nəfər olduqda, Cəmiyyətin Ümumi Yığıncağının səlahiyyətləri təsisçi tərəfindən təkbaşına həyata keçirilir.
4.2. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər. Növbəti Ümumi Yığıncaq icra orqanı tərəfindən müəyyən edilmiş müddətdə çağırılır. Hər bir təsisçinin Cəmiyyətin Ümumi Yığıncağında iştirak etmək, Cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə (şəxsən) iştirak etmək və ya müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq hüququ vardır. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət etibarsızdır.
4.3. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:
4.3.1. Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi, onun nizamnamə kapitalının miqdarının dəyişdirilməsi;

4.3.2. Cəmiyyətin nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi;
4.3.3. Cəmiyyətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarının və qaydasının müəyyən edilməsi;
4.3.4. Cəmiyyətin illik hesabatlarının və mühasibatlıq balanslarının təsdiq edilməsi, mənfəətin və zərərin bölüşdürülməsi;
4.3.5. Cəmiyyətin yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarın qəbul edilməsi;
4.3.6. Cəmiyyətin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, o cümlədən Direktorun təyin edilməsi və geri çağırılması;
4.3.7. Cəmiyyətin Müşahidə şurası və təftiş komissiyasının (müfəttişinin) seçilməsi;
4.3.8. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasının müəyyən edilməsi.
4.4. Ümumi Yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin nizamnamə kapitalındakı payların 75%-nə malik olan iştirakçıların təmsil olunduğu Ümumi Yığıncaq səlahiyyətli sayılır. Cəmiyyətin ləğv edilməsi və ya yenidən təşkili barədə qərarların qəbul olunması üçün Cəmiyyətin nizamnamə kapitalındakı payların 100%-nə malik iştirakçılar Ümumi Yığıncaqda təmsil olunmalıdırlar.
4.5. Ümumi Yığıncaqda Nizamnamənin və Nizamnaməyə edilən əlavə və dəyişikliklərin, nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi, Cəmiyyətin yenidən təşkil və ya ləğv edilməsi barədə qərarlar bütün təsisçilərin yekdil qərarı ilə, digər məsələlər isə sadə səs çoxluğu ilə qəbul edilir.
4.6. Ümumi Yığıncağın qərarları iştirakçılar tərəfindən qəbul edilir, onlar tərəfindən imzalanır və Cəmiyyətin möhürü ilə təsdiqlənir.

## 5. Cəmiyyətin icra orqanı

5.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik Cəmiyyətin təkbaşına icra orqanı olan Direktor tərəfindən həyata keçirilir.
5.2. Direktorun səlahiyyətlərinə aşağıdakılar aid edilir:
5.2.1. Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
5.2.2. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin Azərbaycan Respublikasında törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması, ləğvi və onlarda iştirak barədə, həmçinin Azərbaycan Respublikasında filiallarının və nümayəndəliklərinin yaradılması və ya ləğvi barədə qərarlar qəbul edir;
5.2.3. Cəmiyyətin törəmə təsərrüfat cəmiyyətlərinin, filial və nümayəndəliklərinin fəaliyyətinə nəzarət edir, onların fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini, filial və nümayəndəliklərin əsasnamələrini təsdiq edir;
5.2.4. Törəmə təsərrüfat cəmiyyətlərinin icra orqanını formalaşdırır, filialların və nümayəndəliklərin rəhbərlərini təyin edir, tutduğu vəzifədən azad edir və onlara fəaliyyəti ilə bağlı Cəmiyyət adından müvafiq etibarnamə verir;
5.2.5. Törəmə təsərrüfat cəmiyyətlərinin, filial və nümayəndəliklərin strukturunu, işçilərin say həddini, ştat cədvəlini, əmək haqqı fondunu və xərclər smetasını təsdiq edir;
5.2.6. Cəmiyyətin strukturunu, işçilərin say həddini, ştat cədvəlini, əmək haqqı fondunu və xərclər smetasını təsdiq edilməsi üçün Ümumi Yığıncağa Təqdim edir;
5.2.7. Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyəti daxilində çıxış edir, onu bütün dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, kommersiya və qeyri-kommersiya təşkilatları qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
5.2.8. Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;

5.2.9. Öz səlahiyyəti daxilində Cəmiyyətin adından mülki-hüquqi müqavilələr, vəkalətnamələr verir (o cümlədən, başqasına etibar etmək hüququ ilə);
5.2.10. Müvəkkil banklarda Cəmiyyətin istənilən növ bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı hesablar üzrə sərəncam verir;
5.2.11. Cəmiyyətin əməkdaşlarının əmək funksiyasının dairəsini müəyyən edir, onlarla əmək müqavilələri bağlayır, şərtlərini dəyişdirir və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir;
5.2.12. Cəmiyyətin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;
5.2.13. Öz səlahiyyətləri daxilində qərarlar qəbul edir və həmin qərarları yazılı surətdə əmrlə rəsmiləşdirir;
5.2.14. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən edir;
5.2.15. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.
5.3. Cəmiyyətin icra orqanının səlahiyyətləri müqavilə əsasında başqa fiziki və ya hüquqi şəxslərə (kənar idarəçiliyə) verilə bilər.
5.4. Direktor qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

## 6. Cəmiyyətin ləğv olunması və yenidən təşkili

6.1. Cəmiyyətin ləğv olunması və yenidən təşkili Azərbaycan Respublikasının Mülki Məcəlləsində və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.